# SAMUX: ABADLIQ-QURUCULUQ İŞLƏRİ GENİŞLƏNİR

**Respublikanın qərb zonasında yerləşən qabaqcıl aqrar rayonu olan Samuxda bütün sahələrdə davamlı inkişaf diqqəti çəkir. Burada sakinlərin rahatlığı üçün maksimum şərait yaradılmış, bütün sosial layihələr uğurla icra olunur.**

Hər yerdə yenilik, müasirlik, səliqə-sahman nəzərə çarpır. Kür qoynunda yerləşən Samux şəhərinin ərazisinə daxil olanda, yaraşıqlı, bir-birini tamamlayan binalar, füsunkar Heydər Əliyev parkı, yüksək səviyyətə ailəvi istirahət mərkəzləri, keyfiyyətli, mədəni xidmət hər kəsi məftun edir. Artıq getdikcə Kür çayının sahil boyunca müasir bulvar kompleksləri və möhtəşəm layihələr inşa olunmaqdadır. Rayonun hər bir guşəsində, ucqar kəndlərdə belə aparılan genişmiqyaslı tikinti, abadlıq və quruculuq işləri, sözün əsl mənasında təqdirəlayiqdir. Yaşayış, ictimai, təhsil, səhiyyə, mədəniyyət ocaqları, inzibati binalar zövqlə yenilənmiş, küçə və səkilər yenidən qurulmuş, sakinlər üçün rahat yollar salınmışdır. Gözoxşayan park və xiyabanlar, qədim ornament elementləri ilə işlənmiş sosial və ticarət obyektləri bir-birini tamamlayır, şəhərin bütün binalarının dam örtükləri müasir dəbdə təzələnmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın yerinə yetirilməsi istiqamətində rayonda görülən işlər davam etdirilmişdir. Belə ki, rayon üzrə təmirə ehtiyacı olan çoxmənzilli yaşayış binalarında təmir-bərpa işlərinə başlanmışdır. Ümumilikdə 52 binanın dam örtüyü dəyişdirilmiş, 3740 kvadratmetr fasad hissə tam təmir olunaraq, zövqlə rənglənmişdir. İstixana kəndində 4 binanın və Heydər Əliyev prospektində şəhid ailələrinə verilmiş binanın dam örtüyü tamamlanmaq üzrədir. Elçin Məmmədov küçəsində yüksək keyfiyyətlə hörgü, suvaq və abadlaşma aparılmış, sakinlərin rahatlığı üçün səki daşları döşənmişdir. Binalarda giriş qapıların 10 ədədi quraşdırılmış, 25 ədədinin qoyulması üçün hazırlıq işləri görülür. Göründüyü kimi az bir zaman kəsiyində bu qədər işlərin görülməsi diqqətəlayiqdir.

Bəli, Samuxda abadlıq-quruculuq işləri səngimir. Nəzərə çatdırmaq istərdik ki, 2017-ci ilin 9 ayında da xeyli işlər görülmüşdür. Belə ki, rayon üzrə təmirə ehtiyacı olan 9 çoxmənzilli yaşayış binalarında təmir-bərpa işləri görülmüşdür ki, onlardan 1 bina Samux şəhərində, 6 bina Qarayeri qəsəbəsində, 2 bina isə İstixana kəndində yerləşir. Samux şəhərində 16 mənzilli, ikimərtəbəli binanın 1064 kv. m. dam örtüyü tam yenilənmişdir.

Qarayeri qəsəbəsi Cavad Məmmədov küçəsində yerləşən 8 mənzilli, ikimərtəbəli binanın 470 kv. m. və həmin küçədə 6 mənzilli, ikimərtəbəli binanın 420 kv. m. və İstixana kəndində yerləşən 12 mənzilli, ikimərtəbəli iki binada dam örtüyünün yenilənməsi başa çatmışdır. Hazırda binaların hamısında işlər başa çatmış, rayon sakinlərinin və ictimaiyyətin rəğbətinə səbəb olmuşdur.

Rayon Ağsaqqallar Şurasının sədri Həmzə Həmzəyev bizimlə söhbətində görülən işlərdən danışaraq qeyd etdi ki, qədirbilən samuxlular və rayon ictimaiyyəti, Azərbaycan Prezidenti cənab İlham Əliyevə və onun tövsiyə və tapşırıqlarını Samuxda yüksək səviyyədə və çevik icra edərək sakinlərə hər an diqqət və qayğı göstərən rayon İcra Hakimiyyətinin başçısı Alı Qocayevə minnətdardırlar.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 19 avqust 2017-ci il tarixində Samux rayonuna səfəri çərçivəsində Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" proqramı layihəsinə uyğun olaraq Samux şəhərində inşa edilmiş körpələr evi-uşaq bağçasının binasının açılış mərasimində iştirak etmişdir. Hər biri 100 yerlik olan ikimərtəbəli binaların hər birinin sahəsi 1135 kvadratmetrdir. Müxtəlif yaş qruplarının fəaliyyət göstərəcəyi bağçalarda uşaqların təlim-tərbiyəsi üçün hər cür şərait yaradılıb. Dərs otaqlarının hamısı zəruri avadanlıq və əyani vasitələrlə təchiz olunub. Yataq otaqları uşaqların zövqünə uyğun qurulub. Bundan əlavə, oyun zalında və yeməkxanada da yüksək şərait yaradılıb. Körpələr evi-uşaq bağçalarının həyətlərində balacaların istirahəti üçün meydançalar salınıb, attraksionlar quraşdırılıb. Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinin mənzil şəraitinin yaxşılaşdırılması istiqamətində işlər davam etdirilir. Hazırda Qarayeri qəsəbəsində şəhid ailəsi üçün inşa edilən fərdi evin tikintisi başa çatmaq üzrədir. İnstitut qəsəbəsində və Lək kəndində inşa edilən fərdi evlərin tikintisi davam etdirilir. Burunqovaq kənd ümumi orta məktəbi üçün modul tipli 160 şagird yerlik məktəb binasının tikintisi əsasən başa çatmış, yaxın vaxtlarda istifadəyə veriləcəkdir. Qarayeri qəsəbə 1 saylı məktəb-liseyin binasında əsaslı təmir işlərinə başlanmışdır.






Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev həmin tarixdə tikintiləri başa çatmış Samux-Füzuli-Lək-Əlibayramlı-Qarabağlar-Çobanabdallı-Samux və Zazalı - "İmamzadə" avtomobil yollarının açılışlarında iştirak etmişdir. 23 min nəfər əhalinin yaşadığı və 11 yaşayış məntəqəsini birləşdirərək yük və sərnişin daşımasını xeyli yaxşılaşdırmağa imkan verən bu yolun tikintisi ölkə başçısının 2014-cü ildə imzaladığı müvafiq Sərəncama əsasən həyata keçirilmişdir. Uzunluğu 36 kilometr olan yol dördüncü texniki dərəcəlidir. İki hərəkət zolaqlı yol inşa olunarkən onun üzərində müxtəlif diametrli suötürücü borular və 2 aşırımlı körpü tikilmiş və 16 yerdə avtobus dayanacağı quraşdırılmışdır. Yol nişanlarının qoyulması, üfüqi və şaquli nişanlama xətlərinin çəkilməsi, siqnal dirəklərinin qoyulması həyata keçirilmişdir. Yolun keçdiyi Samux şəhərində, Çobanabdallı, Qarabağlar və Əhmədbəyli kəndlərində yolboyu abadlıq işləri aparılmış, həmişəyaşıl ağaclar əkilmişdir. Eyni zamanda Samux-Yenikənd yolunun kənarlarında təmizlik işləri aparılaraq ağaclar əkilmişdir. Uzunluğu 19 kilometrdən çox olan Zazalı - "İmamzadə" yolunun tikintisi zamanı Gəncə çayı üzərində ikiaşırımlı körpü, 45 yerdə yol birləşmələri inşa olunub, 12 avtobus dayanacağı və 111 yol nişanı quraşdırılıb. Bu yolun tikilməsi Gəncə şəhərinin şimal hissəsindən keçən əlavə dairəvi avtomobil yolu rolunu oynayaraq, Samux, Şəmkir, Tovuz, Qazax, Gürcüstan ilə dövlət sərhədi istiqamətində və əksinə hərəkət edən nəqliyyat vasitələrinin Gəncə şəhərinin mərkəzinə daxil olmadan yük və sərnişin daşımasını təmin etməyə imkan verəcək. Azərbaycan kənd investisiya layihəsi çərçivəsində rayonun Alabaşlı qəsəbəsində 9 km, Alıuşağı kəndində 12,5 km, Zazalı Tatlı, Qiyaslı kəndlərində 12,5 km daxili küçə və yollarda təmir-bərpa işləri aparılmış, su keçidləri yenilənmişdir. Alabaşlı qəsəbəsində 2, Alıuşağı kəndində 2 və Zazalı kəndində 3 ədəd dayanacaq quraşdırılmışdır. Layihə çərçivəsində Lək kəndində daxili yolların təmiri işləri başa çatmış, Əhmədbəyli uşaq bağçasının təmir-bərpa işlərində son tamamlama işləri aparılır. Bütün istiqamətlərdə yolların çiyin hissələri avtoqreyderlə plana salınmış, torpaq yatağı mailliklər kol-kosdan təmizlənmişdir. Gəncə-Samux, Samux-Lək, Samux-İnstitut, Qırmızı Samux-Burunqovaq, Samux-Yenikənd-Poylu avtomobil yollarında və çiyin hissələrində 105 min kvadratmetr sahədə çınqıl materialı ilə təmir işləri aparılaraq 7,5 min kubmetr həcmində çınqıl materialı işlədilmişdir. Həmçinin 58 ədəd qırılmış siqnal dirəkləri yenisi ilə əvəz edilmişdir. Bir sözlə vətədaşların rahatlığı üçün maksimum şərait yaradılmışdır. İnstitut qəsəbəsinin sakini təqaüdçü-müəllim Vilayət İmanov bildirdi ki, sözün əsl mənasında Samux abadlıq-quruculuq meydanına çevrilmişdir. Hər yerdə tərəqqi-inkişaf göz qabağındadır. Sakinlərin rahatlığı üçün hər bir şərait yaradılmışdır.




Dövlətimizin başçısının ölkədə kənd təsərrüfatının inkişaf etdirilməsi, ərzaq təhlükəsizliyinin aradan qaldırılması məqsədilə verdiyi müvafiq tapşırığa əsasən rayon ərazisində iri təsərrüfatların yaradılması istiqamətində işlər davam etdirilmişdir. Hazırda rayonda "AQRO DAİRY" Məhdud Məsuliyyətli Cəmiyyət, "Boz dağ" heyvandarlıq kompleksi, "Ulduz 2011" MMC, "Qarabağ Region MKT" MMC, "Region Aqro" MMC kimi iri sahibkar təsərrüfatları fəaliyyət göstərir. Eyni zamanda rayonda 200-dən çox istixana fəaliyyət göstərir ki, onların da ümumi sahəsi 61 hektardan çoxdur. Bu istixanalarda 5,0 min tondan çox faraş tərəvəz - pomidor, xiyar yetişdirilir. Bu məhsulların çox hissəsi MDB ölkələrinə ixrac olunur.



Samux və Goranboy rayonları ərazisində yaradılacaq aqroparkın suvarma suyu ilə təmin edilməsi məqsədi ilə rayonun Əhmədbəyli kəndi ərazisindən 12 km uzunluğunda 1600 mm diametrli boru ilə su xəttinin çəkilməsi istiqamətində işlər davam etdirilir. Xəttin 9,4 km-i kompozid, 2,6 km-i isə dəmir boru ilə çəkiləcəkdir. Tutumu 100 min kubmetr olan su anbarının tikintisi üçün qazıntı işləri aparılmışdır. Cənab İlham Əliyev eyni zamanda Şəmkir-Samux-Goranboy magistral suvarma kanalının 8,55 kilometrlik hissəsinin istifadəyə verilməsi mərasimində iştirak etmişdir. Şəmkirçay su anbarının, ondan su götürən 60,5 kilometr uzunluğunda magistral kanalların istifadəyə verilməsi ilə Şəmkir, Samux, Göygöl və Goranboy rayonlarında 54 min hektar əkin sahəsinin su təminatı yaxşılaşdırılıb, 17 min hektar yeni suvarılan torpaqlar istifadəyə verilmişdir. Bu layihənin icrası sayəsində cari ildə Samux rayonunda 8 min hektar sahəyə suvarma suyu çatdırılıb. Cənab Prezident Samux rayonuna səfəri çərçivəsində Samux Aqroenerji Yaşayış Kompleksi ilə tanış olub.

Son illər Azərbaycanda alternativ enerji mənbələrindən istifadəyə xüsusi diqqətin göstərilməsi bu sahədə yeni və səmərəli layihələrin icrası ilə yadda qalır. Bu layihələrdən biri də Samux Aqroenerji Yaşayış Kompleksidir. Hazırda Aqroenerji Yaşayış Kompleksində birinci mərhələ üzrə işlər başa çatdırılıb, dövlət hesabına 3,8 MVt-lıq günəş-bioenerji elektrik stansiyası, 1,1 MVt-lıq istilik stansiyası, 10/0,4 kV-luq yarımstansiya quraşdırılıb. Həmçinin rezidentlərin iştirakı hesabına Aqroenerji Yaşayış Kompleksinin üçmərtəbəli inzibati binası, heyvandarlıq kompleksi inşa edilib, əkinçilik, bağçılıq, arıçılıq və istixana təsərrüfatları, maşın-mexanizm parkı yaradılıb. Bu layihə çərçivəsində Samux Aqroenerji Yaşayış Kompleksində "Azguntex" zavodunda hazırlanan meyvə quruducuları, soyuducu kameralar və səyyar rejimdə fəaliyyət göstərən günəş işıqlanması ilə təmin olunmuş turist çadırları, günəş əsaslı yol işıqlanma sistemləri tətbiq edilib. Respublikamızda ilk dəfə günəş texnologiyaları ilə təmin olunmuş enerji effektli üzüm-tərəvəz istixanası və şəhid A.Nəbiyev küçəsində qurulmuş günəş enerjisi ilə çalışan işıq dirəkləri rayon sakinləri tərəfindən rəğbətlə qarşılanıb. Gələcəkdə bu texnologiyaların digər bölgələrdə tətbiqi nəzərdə tutulub.



İlin əvvəlində respublikamızın hər yerində olduğu kimi, rayonumuzda da əhalinin məşğulluğu sahəsində yaranmış problemin aradan qaldırılması məqsədi ilə ölkə başçısının tapşırığı əsasında yeni iş yerlərinin yaradılması və ictimai işlərin təşkili istiqamətində tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin "Əhalinin özünəməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" 2016-cı il 7 aprel tarixli Sərəncamının icrası ilə bağlı həyata keçirilən tədbirlər çərçivəsində Samux rayonu üzrə Məşğulluq Mərkəzində qeydiyyatda olan aztəminatlı ailələrdən 12 nəfər təlimlərə cəlb edilmiş, onlardan 9 nəfərinin biznes-planı müsbət dəyərləndirilmişdir. 9 nəfərlə müvafiq müqavilə bağlanmış və fəaliyyətə başlamışlar. Onlardan 1 nəfəri istixana qurmaqla, 1 nəfəri fotostudiya açmaqla, 1 nəfəri quşçuluqla, 6 nəfəri isə iribuynuzlu mal-qara saxlamaqla özünüməşğulluğu təmin edəcəkdir. Bu proqrama gələcəkdə daha çox işaxtaran cəlb olunacaqdır.

Cari ildə sahələrdən yüksək məhsul əldə etmək üçün lazımi tədbirlər həyata keçirilmişdir. 2017-ci ilin məhsulu üçün 8306 hektar sahədə taxıl əkilmişdir ki, ondan da 5691 hektarı buğda, 2615 hektarı dən üçün arpadır. Sahələrdən 22873 ton taxıl məhsulu əldə olunmuşdur. Orta məhsuldarlıq 27,5 sentner təşkil edir. Rayonda 3618 hektar günəbaxan, 134 hektarı kartof, 490 hektar soya, 250 hektar bostan bitkiləri, 356 hektar çoxillik otlar, 675 hektar tərəvəz, 20 hektar çəltik, 303 hektar qarğıdalı, 24 hektarı paxlalılar, 1194 hektar şəkər çuğunduru əkilmişdir. Hesabat dövründə sahələrdən 1534 ton kartof, 10437 ton tərəvəz, 3475 ton bostan bitkiləri, 7608 ton günəbaxan, 47 ton paxlalılar, 1005 ton qarğıdalı, 10567 ton şəkər çuğunduru, 40 ton çəltik, 182 ton soya toplanmışdır.

2017-ci il oktyabrın 1-i tarixinə rayonda iribuynuzlu mal-qaranın sayı 24998 baş olmuşdur. Bundan ana inək və camışların sayı 12918 baş təşkil edir. Qoyun və keçilərin sayı 153058 başdır. 9 ay ərzində 3319 ton diri çəkidə ət, 15920 ton süd, 5278 min ədəd yumurta, 327 ton yun istehsal olunmuşdur. Heyvandarlıq məhsullarının istehsalında da ötən ilin müvafiq dövrü ilə müqayisədə artım vardır. Rayonda 46 subartezian quyusunun qazılıb istifadəyə verilməsi nəzərdə tutulmuşdur ki, onlardan 41-i istifadəyə verilmişdir. Şəmkir-Maşın kanalına daimi suyun verilməsi təmin edilmişdir. Bununla bərabər hesabat dövründə 278 ədəd nasos, 57 ədəd elektrik avadanlığı təmir edilmişdir. Torpaqların suvarılması üçün kanallarda 268 min kubmetr lildən təmizləmə, 42 min kubmetr sahilbərkitmə işləri görülmüşdür. Kanallarda 43 ədəd hidrotexniki qurğu, 20 ədəd hidrotexniki postlar təmir edilmiş, 15200 kvadratmetr kol-koslardan təmizləmə işləri aparılmışdır. 9 ay ərzində Gəncə çayında 24 min kubmetr, Qabırrı çayında 10 min kubmetr, Qoşqar çayında 9 min $m^3$ əlavə sahilbərkitmə işləri görülmüşdür. Əhalinin təbii qazla təminatının yaxşılaşdırılması istiqamətində də müəyyən işlər görülmüşdür.

Hazırda rayonun 30 yaşayış məntəqəsində mavi yanacaqdan istifadə olunur ki, bu da rayon üzrə 85,7 faiz yaşayış məntəqəsinin təbii qazla təmin olunması deməkdir. 9 ay ərzində rayonun Qarayeri qəsəbəsində diametri 57 mm-lik 570 pm və diametri 76 mm-lik 590 p/m uzunluğunda qaz xətti çəkilərək rənglənmişdir. Sərkar, Çobanabdallı və Əlibayramlı kəndlərində bir ədəd qaztənzimləyici məntəqə quraşdırılmışdır. Çobanabdallı, Qarabağlar və Əhmədbəyli kəndlərində yol kənarında olan qaz xətləri əsaslı təmir edilmişdir. Yüksəksürətli internet portalının tutumu 232 port artırılmış və aztelekom.net portalının montaj tutumu 3824 porta çatdırılmışdır. Hazırda rayonda internet xidmətindən 3599 abunəçi istifadə edir ki, bu da keçən ilin müvafiq dövründəkindən 12,9 faiz çoxdur. Telekommunikasiya Qovşağı genişzolaqlı yüksəksürətli internet xidmətinin keyfiyyətinin yüksəldilməsi və portların sayının daha da artırılması istiqamətində işlərini daha da yaxşılaşdırmalıdır.

Qeyd etdiyimiz kimi, Samux rayonunun 2014-2018-ci illərdə sosial-iqtisadi inkişaf istiqamətləri ilə bağlı illər üzrə geniş Tədbirlər planı tərtib edilmişdir.

Cari ildə şəhərin kanalizasiya və mərkəzləşmiş içməli su sisteminin qurulması işlərinə başlanması gözlənilir. Rayonun Sərkar kənd orta məktəbi üçün 650 şagird yerlik, institut qəsəbə tam orta məktəbi üçün 650 şagird yerlik yeni məktəb binalarının, Qarayeri qəsəbə 2 saylı tam orta məktəbi üçün 200 şagird yerlik, Alıuşağı kənd tam orta məktəbi üçün isə 120 şagird yerlik əlavə korpusların tikintisi həyata keçirilməlidir. Eyni zamanda ilin sonuna kimi şəhərin küçələrinin yenidən qurulması və kəndlərarası yolların əsaslı təmiri də əsas hədəflərimizdən biridir. Qarşımızda duran ən vacib məsələlərdən biri də rayon iqtisadiyyatının daha da genişləndirilməsi, xüsusilə kənd təsərrüfatının inkişaf etdirilməsinin sürətləndirilməsidir.

Rayon gənclərinin, xüsusən məktəblilər arasında istedadlı şagirdlərin üzə çıxarılmasında mütəmadi olaraq məqsədyönlü işlər aparılır. Məktəblilərin istirahət günlərini, boş vaxtlarını səmərəli keçirilməsi məqsədi ilə rayon üzrə futbol, voleybol və s. komandalar yaradılmış, hər ay yarışlar keçirilir. Bundan əlavə rayonlararası keçirilən hərbi-idman oyunlarına ciddi önəm verilir. Yarışların yüksək səviyyədə keçirilməsi üçün ixtisaslı müəllimlərin təcrübəsindən geniş istifadə olunur. Rayon Təhsil Şöbəsi tərəfindən idmanın kütləviliyinin artırılması ön plana çəkilmişdir.

Göründüyü kimi Samux rayonu ildən-ilə dinamik inkişaf edir, müasirləşir. Əhalinin maddi rifah halı günü-gündən yüksəlir. İnanırıq ki, Samux rayonunun işgüzar zəhmət adamları aqrar sahədə daha yüksək nailiyyətlər qazanmaqla ölkə iqtisadiyyatına yeni töhfələr verəcəklər.

**Zabit XƏLİLOV,**
**"Respublika".**








